Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 11-12
(7339-7340) Şənbə , 13 fevral 2016-cı il. Qəzet ayda 4 dəfə çıxır Qiyməti 40 qəpik



## PREZIDENTIN IŞ GÜNDƏLIYINDƏN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Londonda keçirilən Suriyaya və regiona dəstək» konfransında iştirak edib və konfransda nitq söyləmişdir. Böyük Britaniya, Almaniya, Küveyt, Norveç və Birləşmiş Millətlər Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən konfransda Suriyaya təcili və uzunmüddətli yardımın təmin edilməsi və regionda hümanitar və təhsil layihələrinin reallaşdırılması və s. məsələlər müzakirə edilib.

* * *

Ölkə başçısı fevralın 8-də Qobustan rayonunun Təklə-Sündü-Xilmilli avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalamışdır. Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində avtomobil yolları təsərrüfatı üçün nəzərdə tutulmuş vəsait hesabına «Azəryolservis» Açıq Səhimdar cəmiyyətinə 700 min manat ayrılmışdır.

* * *

Azərbaycan Respublikasının Prezidentinin 9 fevral 2016-cı il tarixli sərəncamı ilə Gəncə şəhərinin Zazalı—«İmamzadə» kompleksi—Gəncə avtomobil yolunun tikintisi üçün12 milyon manat və 10 fevral 2016-cı il tarixli sərəncamı ilə Yardımlı rayonunun Yardımlı—Deman—Arvana avtomobil yolunun tikintisinə 1,3 milyon manat ayrılmışdır.

* * *

Azərbaycan Prezidenti tərəfindən sahibkarların və çoxsaylı investorların müraciətləri nəzərə alınaraq «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə» 2016-cı il 19 yanvar tarixli qanun Konstitusiyanın 110-cu maddəsinin I hissəsinə uyğun olaraq imzalanmadan Milli Məclisə geri qaytarılmışdır.

**Nadir ATAKİŞİYEV.**

## İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində enerji təhlükəsizliyinə dair "dəyirmi masa"da iştirak edib

Almaniya Federativ Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Neftin qiymətinin aşağı düşməsi geosiyasi məsələləri üzrə enerji təhlükəsizliyi" mövzusunda "dəyirmi masa"da iştirak edib.

"Dəyirmi masa"da neftin qiymətinin səviyyəsi və bunun istehsalçı ölkələrə nə dərəcədə təsir etməsi ilə bağlı müzakirələr aparılmışdır. Azərbaycan Respublikasının Prezidenti müzakirə olunan məsələ ilə bağlı bildirmişdir ki, Azərbaycan müstəqilliyini əldə etdiyi vaxt iqtisadiyyatımız demək olar ki, durğunluq, iqtisadi və maliyyə böhranı səbəbindən tamamilə məhv edilmişdi. Buna görə də Azərbaycanın neft və qaz sektoruna əsas neft şirkətlərinin sərmayə yatırmağa dəvət edilməsi bizim üçün təkcə investisiyaların cəlb olunması mənasını daşımırdı. Bizim üçün bu, müstəqilliyimizin gücləndirilməsi və ölkəmizin müvəffəqiyyət qazanmasının yollarının tapılması mənasını daşıyırdı. O vaxtdan bəri iyirmi il ötüb və biz nəinki neft-qaz sahəsinə böyük investisiyaları cəlb etməyi və önəmli neft və tezliklə təbii qaz istehsalçısına və ixracatçısına çevrilməyi bacardıq, eyni zamanda, neft-qaz sahəsindən əldə etdiyimiz gəlirləri əsasən qeyri-neft sektoruna, xüsusilə infrastruktura yatıra bildik. Buna görə də bizim neft amilindən asılılığımız ötən 5-10 il ərzində əhəmiyyətli dərəcədə azalmışdır. Neft ümumi daxili məhsulumuzun yalnız 30 faizini təşkil edir. Biz eyni mənzərəni ixrac əməliyyatlarımızda görmək istəyirik. Buna görə növbəti illər üçün vəzifə ixrac potensialımızı şaxələndirməkdir və bu məqamda biz əlbəttə ki, iqtisadi islahatların davam etdirilməsi, özəl sektor üçün daha da yaxşı şəraitin yaradılması, daha çox investisiyaların cəlb edilməsi və irimiqyaslı özəlləşdirmə proqramına başlanılması zərurətinə gəlirik. Bütün bu elementlər dövlət siyasətimiz kimi artıq bəyan olunub və mən əminəm ki, biz uğur qazanacağıq.

## Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuralarının yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları yaradılsın.

2. "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 3 fevral 2016-cı il.*

## Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına əsasən Qəbələ rayonunda qərargah yaradılmışdır

Azərbaycan Respublikası Prezidenti möhtərəm cənab İlham Əliyevin tapşırığı ilə ölkədə sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması, sərmayələrin cəlb edilməsi ilə bağlı icra hakimiyyəti başçılarının rəhbərliyi ilə rayon qərargahları yaradılır.

Bu məqsədlə rayon icra hakimiyyəti başçısının 05 fevral 2016-cı il tarixli sərəncamı ilə Qəbələ rayonu üzrə qərargah yaradılmışdır. Qərargaha rayon icra hakimiyyəti, sahibkarlıqla və əhalinin məşğulluğu ilə bilavasitə əlaqəli olan idarə və təşkilatların rəhbərləri, ictimai təşkilatların, sahibkarlıq qurumlarının, qeyri hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri daxildir.

Qərargahın əsas vəzifəsi rayonda sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluğunun artırılması, yeni iş yerlərinin açılması və sərmayələrin cəlb edilməsi ilə bağlı tədbirlərin görülməsindən ibarətdir. Bunun üçün qərargah sosial-iqtisadi inkişafa müsbət təsir göstərə bilən layihələr, həmin layihələrin həyata keçirilməsi üçün təkliflər hazırlamalı və icrası üçün tədbirlər görməlidir.

Qəbələ rayonu ərazisində sosial-iqtisadi inkişafa təsir edə bilən təkliflərin verilməsi üçün qərargahda qaynar xətt fəaliyyət göstərir (qaynar xətt: 02420 5-19-55).